# Azərbaycan ilə Somali arasında ikitərəfli əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib



**İyulun 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisalam Abdi Ali ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlər arasında baş tutan təkbətək görüş daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan ilə Somali arasında ikitərəfli əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq gündəmdə duran məsələlər müzakirə olunub.

Son bir neçə il ərzində ölkələrimiz arasında təmasların intensivləşməsi, qarşılıqlı səfərlərin sayının artmasının məmnunluq doğurduğu qeyd edilib.

Ceyhun Bayramov Azərbaycan və Somali arasında əməkdaşlığın siyasi, iqtisadi, humanitar və digər sahələrdə daha da dərinləşdirilməsi üçün mövcud potensialdan istifadə olunmasının vacibliyini vurğulayıb.

Kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, "yaşıl enerji", humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğu bildirilib. Somali nümayəndə heyətinin ADEX sərgisində iştirakı xatırlanıb, müdafiə sənayesi sahəsində geniş əməkdaşlıq perspektivlərinin mövcudluğu qeyd edilib.

Həmçinin bu ilin fevral ayında Azərbaycan hökumət missiyasının Somaliyə səfəri, bu çərçivədə Xarici İşlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələrin keçirilməsinin iki ölkə arasında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinə və yeni təşəbbüslərin formalaşdırılmasına zəmin yaratdığı qeyd olunub.

Görüşdə Azərbaycan və Somali arasında ikitərəfli çərçivədəki münasibətlərlə yanaşı, çoxtərəfli beynəlxalq və regional platformalarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın önəmi vurğulanıb. Bu xüsusda, Somalinin 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dövründə əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib və gələcəkdə də qarşılıqlı dəstəyə əsaslanan münasibətlərin davam etdiriləcəyinə əminlik ifadə olunub. Ölkəmizin 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə evsahibliyi və Təşkilata sədrliyi dönəmində ölkələrimiz arasında geniş əməkdaşlıq perspektivlərinin olduğu qeyd edilib. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonra nazirlər birgə mətbuat konfransında çıxış ediblər.

Azərbaycan.-2025.- 25 iyul (№ 152).- S.2.